

Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi

# İXRAC İCMALI

İyul 2021

http://ereforms.gov.az
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

## “ALTI AYIN YEKUNLARI İSƏ BUNU GÖSTƏRİR Kİ, BİZİM İQTİSADİYYATIMIZ 2 FAİZ ARTIB. BU, YAXŞI GÖSTƏRİCİDİR”.

Prezident
İlham Əliyevin
Azərbaycan Televiziyasına müsahibəsindən
22 iyul 2021



“Altı ayın yekunları onu göstərir ki, artıq Azərbaycan iqtisadiyyatı tənəzzüldən çıxıb. Əgər bu altı ayın hər bir ayının iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, ilin əvvəlində iqtisadi tənəzzül daha böyük rəqəmlərlə ölçülürdü. Hər ay tənəzzül azalırdı və biz may ayının yekunlarına görə bir balaca iqtisadi inkişafa nail ola bildik. Altı ayın yekunları isə bunu göstərir ki, bizim iqtisadiyyatımız 2 faiz artıb. Bu, yaxşı göstəricidir”.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 10

2021-ci ilin yanvar-iyun aylarında "Azərkosmos" ASC 22 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir — səh. 13

2021-ci ilin yanvar-iyun aylarında Azərbaycanda xaricilər bank kartları vasitəsi ilə193,1 milyon manatlıq əməliyyat aparmışlar — səh. 14

Azexport.az portalına 2021-ci ilin yanvar-iyun aylarında 236,6 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 15

2021-ci ilin iyul ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 20 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir — səh. 17

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2021-ci ilin **yanvar-iyun ayları** ərzində Azərbaycanın **ixracı** **8,8 milyard ABŞ dolları** dəyərində olmuşdur

2021-ci ilin **yanvar-iyun aylarında** qeyri-neft sektoru üzrə ixrac **1,2 milyard ABŞ dolları** təşkil etmişdir

2021-ci ilin 6 ayı ərzində Azərbaycanın ixracı **8,8 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə 1,2 milyard ABŞ dolları dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **248 milyon ABŞ dolları** və ya **27,1 faiz** artıb. Cari dövrdə ixracatın əsas hərəkətverici amili neft sektoru olsa da, bərpa dönəmində qeyri-neft ixracı üzrə pay 13.2 faizə qədər artıb. Baxılan dövr ərzində adambaşına düşən qeyri-neft və qaz ixracında artım müşahidə edilib. Belə ki, qeyri-neft və qaz ixracı üzrə 2017-ci ilin ilk 6 ayı üzrə ildə 82 dollar, 2018-ci ildə 94 dollar, 2019-cu ildə 97 dollar olub. Pandemiya dönəmi ilə əlaqədar bu göstərici 91 dollara düşsə də, cari ilin ilk 6 ayında tarixdə ilk dəfə 116 dollar səviyyəsinə qalxıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə iyun ayı üzrə xarici ticarət həcmi 2,4 milyard dollar olmaqla, mövcud dövr ərzində ölkə üzrə ixrac 1,4 milyard dollar, idxal isə 997,1 milyon dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 33.7 faiz təşkil etməklə 254,9 milyon dollar olub. Habelə, iyun ayında qeyri-neft ixracının ümumi ixracda payının təxminən 20 faizə yaxınlaşmasını da əlamətdar hadisə kimi qeyd edə bilərik.

2021-ci ilin yanvar-iyun ayları ərzində ixrac edilən qeyri-neft sektoruna

aid malların siyahısında tomat (pomidor) (**123,6 milyon ABŞ dolları**) birinci olub. Bu siyahıda pambıq mahlıcı ikinci (**121,9 milyon ABŞ dolları**), qızıl isə üçüncü (**107,9 milyon ABŞ dolları**) yerdə qərarlaşıb.

Bu ilin yanvar-iyun ayı ərzində Rusiyaya **403,8 milyon**, Türkiyəyəy **309,5 milyon**, İsveçrəyə **117,6 milyon**, Gürcüstana **80,2 milyon** və ABŞ-a **30,3 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin iyun ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya (124,4 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (54,5 milyon ABŞ dolları) və İsveçrə üçüncü (26,5 milyon ABŞ dolları) olub.

2021-ci ilin iyun ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında tomat (pomidor) (36,6 milyon ABŞ dolları) birinci, albalı və gilas (29,3 milyon ABŞ dolları) ikinci və qızıl (20,5 milyon ABŞ dolları) üçüncü olub.

MADE IN AZERBAIJAN

## 2021-ci ilin **YANVAR-İYUN AYLARINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



## 2021-ci ilin **İYUN AYINDA** qeyri-neft sektoru üzrə **5 ƏSAS İXRAC ÖLKƏSİ**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2021-ci ilin **YANVAR-İYUN AYLARINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI İYUL

| Məhsul | 2021 | 2020 |
|---|---|---|
| Tomat (pomidor) | 123,6 | 162,3 |
| Pambıq mahlıcı | 121,9 | 58,6 |
| Qızıl | 107,9 | 85,7 |
| İlkin formalı polipropilen | 52 | 39,9 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 50 | 24,4 |
| Qabığı təmizlənmiş meşə fındığı | 40,3 | 54,5 |
| Kartof | 39,8 | 33,8 |
| Elektrik enerjisi | 33 | 41,6 |
| Xurma | 31,9 | 14,1 |
| Digər | 562 | 397 |












2021 İXRAC İCMALI İYUL

# 2021-ci ilin **İYUN AYINDA** ixrac olunan əsas **QEYRİ-NEFT MALLARININ SİYAHISI**

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)







| Mal | 2021 | 2020 |
|---|---|---|
| Tomat (pomidor) | 36,6 | 39,2 |
| Albalı və gilas | 29,3 | 32,2 |
| Qızıl | 20,5 | 21 |
| Kartof | 18,5 | 10,5 |
| Pambıq mahlıcı | 13,4 | 9,9 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 9,5 | 4,2 |
| Metanol | 8,6 | 4,8 |
| Digər yağlar və məhsullar | 8,5 | 4,3 |
| İlkin formalı polipropilen | 7,7 | 8 |
| Digər | 102,2 | 56,3 |







## YANVAR - İYUN AYLARINDA ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR (milyon ABŞ dolları ilə)

### 2019

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Tomat (pomidor) | 24,2 |
| May | Tomat (pomidor) | 54,6 |
| İyun | Tomat (pomidor) | 33,8 |

### 2020

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Qızıl | 16,3 |
| Fevral | Pambıq mahlıcı | 19,5 |
| Mart | Tomat (pomidor) | 19,2 |
| Aprel | Tomat (pomidor) | 29,4 |
| May | Tomat (pomidor) | 49,7 |
| İyun | Tomat (pomidor) | 39,2 |

### 2021

| Ay | Mal | Dəyər |
|---|---|---|
| Yanvar | Xurma | 16,7 |
| Fevral | Qızıl | 24,7 |
| Mart | Pambıq mahlıcı | 31,4 |
| Aprel | Pambıq mahlıcı | 27,8 |
| May | Tomat (pomidor) | 44,7 |
| İyun | Tomat (pomidor) | 36,6 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2021-ci ilin yanvar-iyun aylarında qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2021-ci ilin yanvar-iyun ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

2021-ci ilin yanvar-iyun ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Local Garden" MMC, "P-Aqro" MMC, "Baku Steel Company", "Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Fruitland" MMC və “Agro-Land-Az” QSC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, "Azergold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Dəmir Yolları" QSC, "Azəripək" MMC, "Caspian Geo" MMC, Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2021-ci ilin **YANVAR-İYUN AYLARINDA** qeyri-neft sektoru üzrə **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



## 2021-ci ilin **YANVAR-İYUN AYLARINDA** qeyri-neft sektoru üzrə **DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ** (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI İYUL




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisədir.

# 2021-ci ilin YANVAR-İYUN AYLARINDA "AZƏRKOSMOS" ASC 22 MİLYON ABŞ DOLLARI dəyərində XİDMƏT İXRAC ETMİŞDİR



2021-ci ilin yanvar-iyun aylarıda "Azərkosmos" ASC tərəfindən dünyanın **31 ölkəsinə 22 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **90 faizini** təşkil etmişdir. 2021-ci ilin iyun ayında isə "Azərkosmos" ASC dünyanın **24 ölkəsinə 2,6 milyon ABŞ dolları** dəyərində xidmət ixrac etmişdir




## 2021-ci ilin yanvar-iyun aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi 5 əsas ölkə

| Ölkə | Dəyər |
|---|---|
| ABŞ | 5,1 mln $ |
| Birləşmiş Krallıq | 5,1 mln $ |
| Fransa | 4,8 mln $ |
| Malayziya | 3,6 mln $ |
| BƏƏ | 878 min $ |

Azərbaycana gələn **XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ** ilə apardıqları əməliyyatlar (milyon manatla)



| | 2019 | 2020 | 2021 |
|---|---|---|---|
| Yanvar | **88,3** | **85,2** | **25** |
| Fevral | **85,3** | **72,9** | **25,5** |
| Mart | **98** | **53,9** | **33,4** |
| Aprel | **103,2** | **19,7** | **28,3** |
| May | **100,9** | **24,3** | **32,6** |
| İyun | **115,1** | **23,7** | **48,3** |
| **Cəmi** | **590,8** | **279,7** | **193,1** |

# 3

# AZEXPORT.AZ PORTALINA 2021-Cİ İLİN YANVAR-İYUN AYLARINDA 236,6 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Portala daxil olan ixrac sifarişlərinin **ümumi dəyəri** **2 milyard 432 milyon** ABŞ dolları təşkil etmişdir

2021-ci ilin yanvar-iyun aylarında Azexport.az portalına **236,6 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2021-ci ilin iyun aylarında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə **42,3 milyon ABŞ dolları** təşkil etmişdir.

2021-ci ilin iyun ayında Azexport.az portalına ən çox ixrac sifarişi toyuq əti, toyuq yumurtası, çay, pambıq, tütün, günəbaxan yağı və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 30 iyun tarixinə kimi (54 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 432 milyon ABŞ dolları** təşkil edib.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

## **AZEXPORT.AZ PORTALINA** daxil olan **İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ**

2017-ci il - **475 mln $**

2018-ci il - **514,1 mln $**

2019-cu il - **595,7 mln $**

2020-ci il - **610,8 mln $**




2021-ci il

Yanvar - **53,9 mln $**

Fevral - **35,3 mln $**

Mart - **42 mln $**

Aprel - **33 mln $**

May - **30,1 mln $**

iyun - **42,3 mln $**

2021-ci il - **236,6 mln $**



Son **54 ay** ərzindəki sifarişlərin cəmi - **2 432,2 mln $**

4

# 2021-Cİ İLİN İYUL AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 20 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzinə 2021-ci ilin iyul ayı ərzində hüquqi və fiziki şəxslər tərəfindən 120 dəfə müraciət daxil olmuşdur. Ümumilikdə **134 ədəd sertifikat** (96 ədəd mənşə, 30 ədəd baytarlıq, 8 ədəd CİTES) verilib.

Cari ilin iyul ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə **20 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli külçələr, ağ, qırmızı, meyvə şərabları, nar, alma, albalı şirələri, qarışıq şirələr, nar konsentrantı, narşərab, tibbi zəli, buğda kəpəyi, biyan kökü, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, pambıq mahlıcı, pambıq çiyidi, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, iribuynuzlu heyvan bağırsağı, pendir, işlənmiş katalizator, dondurma, dondurma vaflisi, oksigen maye qazı, polad armatur yayması, polad məftil, polad boru, Dağıstan turunun ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli külçələr (46%), polad armatur yayması (24%), pambıq mahlıcı (18,7%), pendir (3,1%), meyvə şirələri (2,9%) ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 21 ölkəyə ixrac edilmişdir. İxracın Avropa ölkələrinə (Almaniya, İsveçrə, İtaliya, Polşa, Danimarka) düşən payı - 46,6%, MDB ölkələrinə (Qazaxıstan, Özbəkistan, Rusiya, Belarus) düşən payı 8,9%, Türkiyə 20,2%, ABŞ 0,4% təşkil edir. O cümlədən, Gürcüstan, Ukrayna, İsrail, Honq-Konq, Misir, Yeni Zelandiya, Fil Dişi Sahili, Kanada, Azərbaycan (Duty Free), Malayziyaya ixrac reallaşdırılmışdır. İxrac olunan məhsulların hava nəqliyyatı ilə (46,1%), avtomobil ilə (46,2%), qarışıq nəqliyyat ilə (5,9%), dəmiryolu nəqliyyatı ilə ixracı isə (0,2%) təşkil edir.

Ixrac statistikasına nəzər yetirdikdə 2020-ci ilin iyul ayı ilə müqayisədə ixracda **3 milyon ABŞ dolları** dəyərində artım müşahidə olunmuşdur.

2021-ci ilin **İYUL AYINDA** "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə həyata keçirilən **İXRACIN STATİSTİKASI** (milyon ABŞ dolları ilə)



# Cari ilin **İYUL AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin** təqdim etdiyi **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**



**AVROPA ÖLKƏLƏRİ**
(Almaniya, Danimarka, İsveçrə, İtaliya, Polşa)
**46,6%**




**TÜRKİYƏ**
**20,2%**

**ABŞ**
**0,4%**

**MDB ÖLKƏLƏRİ**
(Qazaxıstan, Özbəkistan, Rusiya, Belarus)
**8,9%**

# Cari ilin **İYUL AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə
# ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ

2021 İXRAC İCMALI İYUL



# Cari ilin **İYUL AYINDA "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi** vasitəsilə ixrac edilən məhsulların **NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ**

2021 İXRAC İCMALI İYUL



Hava nəqliyyatı
**46,1%**

Avtomobil nəqliyyatı
**46,2%**

**0,2%**
Dəmiryolu nəqliyyatı

**5,9%**
Qarışıq nəqliyyat

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

Tel.: (+994 12) 521 25 35
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.


http://ereforms.gov.az

/iqtisadiislahat


Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org


